


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 3 (20.904)

*9 yanvar 2014-cü il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Zəngin quruculuq təqvimi ötən ilin uğurlu olmasından xəbər verir

***Naxçıvan Muxtar Respublikası iqtisadi inkişaf sahəsində əldə edilən nailiyyətlərə görə ölkənin digər regionları arasında öncüllər sırasındadır. Xüsusi vurğulamaq lazımdır ki, regionların sosial-iqtisadi inkişafına xidmət edən dövlət proqramları çərçivəsində həyata keçirilən kompleks tədbirlər muxtar respublikanın dinamik inkişafına və uğurlarına etibarlı zəmin yaradıb.***

Təkcə ötən il ərzində həyata keçirilən abadlıq-quruculuq işlərinin miqyasına nəzər salsaq, görərik ki, yola saldığımız ilin hər bir ayında muxtar respublikada müxtəliftəyinatlı obyektlər istifadəyə verilib. Həyata keçirilən tədbirlər nəticəsində insanların rahat yaşayışı üçün mənzil-kommunal xidmətlərinin səviyyəsi yüksəldilib, zəruri infrastruktur layihələri icra olunub. Bir faktı qeyd edək ki, ötən il 592 obyekt tikilərək, əsaslı bərpa olunaraq və ya yenidən qurularaq istifadəyə verilib. Görülən işlərin əhatə dairəsinin ildən-ilə genişlənməsi hesabına tikinti-quraşdırma tədbirlərinə sərf olunan maliyyə vəsaitlərinin həcmi də artıb. Yola saldığımız ildə əsas kapitala investisiya qoyuluşlarının 89 faizə qədəri və ya 919 milyon manatdan çoxu tikinti-quraşdırma işlərinə sərf olunub.

Ötən il yanvar ayının quruculuq sahəsində ilk əlamətdar hadisəsi isə ucqar dağ kəndi Ağbulaqda yeni məktəb binasının, kənd və xidmət mərkəzlərinin istifadəyə verilməsi olub. Bundan sonra Naxçıvan şəhərində 10 nömrəli uşaq bağçası, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin inzibati binaları istifadəyə verilib. Yanvarın 22-də isə Ordubad rayonunun Çənnəb kəndinin sakinlərinə yeni quruculuq töhfələri ərməğan edilib. Kənddə tam orta məktəb, kənd və xidmət mərkəzləri fəaliyyətə başlayıb. Bu əlamətdar hadisədən iki gün sonra isə Naxçıvan şəhərindəki Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin yeni binasının qapıları gənc sənətsevərlərin üzünə açılıb.

Ümumiyyətlə, ötən ildə 20 kənd mərkəzi tikilib və ya yenidən qurulub, kənd mərkəzlərinin sayı 104-ə çatdırılıb. Kənd sakinlərinin zəruri istehlak mallarına olan tələbatının sərfəli qiymətlərlə ödənməsinə, müxtəlif məişət xidmətlərinin istifadəsinə imkan verən xidmət mərkəzlərinin yaradılması diqqət mərkəzində saxlanılıb. Belə ki, 2013-cü ildə 21 xidmət mərkəzi inşa edilib və ya yenidən qurulub. Bütövlükdə, kənd və qəsəbələrdə 76 xidmət mərkəzi istifadəyə verilib.

Təhsilə qayğı da diqqətdən kənarda qalmayıb. Yuxarıda da qeyd etdiyimiz kimi, Naxçıvan şəhərində 972 şagird yerlik 10 nömrəli, 846 şagird yerlik 16 nömrəli, Şərur rayonunun Sərxanlı kəndində 234 yerlik tam orta məktəb binaları şagird və müəllimlərin ixtiyarına verilib. Bundan başqa, Şərur rayonunun Dəmirçi kəndində 1026, Xanlıqlar kəndində 396, Şahbulaq kəndində 110, Gümüşlü kəndində 132, Babək rayonunun Şəkərabad kəndində 306, Çeşməbasar kəndində 234, Ordubad rayonundakı Sabirkənddə 378, Əlahi kəndində 88, Bist kəndində 154, Xurs və Nürgüt kəndlərinin hər birində 110, Nəsirvaz kəndində 88, Culfa rayonunun Kırna kəndində 306, Teyvaz kəndində 110, Şahbuz rayonunun Kükü kəndində 198, Ayrınc və Qızıl Qışlaq kəndlərinin hər birində 110, Kəngərli rayonunun Xok kəndində 1080 şagird yerlik tam orta məktəb binaları da istifadəyə verilib. Ümumilikdə, ötən il 9 min 164 şagird yerlik 25 tam orta məktəb binasında tikinti, yenidənqurma və əsaslı təmir işləri həyata keçirilib. Bəhs olunan dövrdə məktəbəqədər təhsil də unudulmayıb. Ordubad şəhərində 242, Heydərabad qəsəbəsində isə 144 yerlik uşaq bağçalarının açılışı olub. Naxçıvan şəhərində və Babək qəsəbəsində uşaq bağçalarının tikintisi davam etdirilib. Bundan əlavə, Naxçıvan şəhərində Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbi tikilərək, 3 nömrəli Uşaq Musiqi Məktəbi üçün bina isə yenidən qurularaq istifadəyə verilib.

Səhiyyə infrastrukturu quruculuğu çərçivəsində 2013-cü ildə Şərur rayonunun Dəmirçi, Xanlıqlar və Sərxanlı, Babək rayonunun Çeşməbasar, Ordubad rayonunun Bist, Culfa rayonunun Kırna, Kəngərli rayonunun Xok, Şahbuz rayonunun Kükü və Qızıl Qışlaq kəndlərində həkim ambulatoriyaları, Şərur rayonunun Gümüşlü və Şahbulaq, Babək rayonunun Şəkərabad, Ordubad rayonunun Nürgüt, Nəsirvaz, Əlahi və Xurs, Culfa rayonunun Teyvaz, Şahbuz rayonunun Güney Qışlaq və Ayrınc kəndlərində isə feldşer-mama məntəqələri istifadəyə verilib. Babək Rayon Mərkəzi Xəstəxanasının tikintisi, Kəngərli Rayon Xəstəxanasının və Şahbuz rayonunun Sələsüz kəndində həkim ambulatoriyasının yenidən qurulması başa çatdırılıb. Bütövlükdə, ötən il 22 səhiyyə müəssisəsi tikilib və ya yenidən qurulub.

İdman infrastrukturu quruculuğu sahəsində görülən işlər çərçivəsində Naxçıvan şəhərində Atıcılıq Mərkəzi, Babək rayonunda Uşaq-Gənclər Şahmat Məktəbi üçün yeni bina istifadəyə verilib, Naxçıvan Muxtar Respublika Stadionunda yenidənqurma işləri aparılıb. "Araz-Naxçıvan" Futbol Klubunun peşəkar futbola qayıdışı təmin olunub.

2013-cü ildə mədəniyyət obyektlərinin də inşası və təmiri davam etdirilib, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin inzibati binası və sərgi salonu tikilərək, Naxçıvan şəhərində Saat meydanı və parkı yaradılaraq istifadəyə verilib.

Ötən ilin əlamətdar hadisələrindən biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 5 iyun tarixli Sərəncamı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması olub. Ordubad rayonunun Nəsirvaz kəndində "Gəmiqaya" Tarix-Bədii Qoruğu və Muzey üçün bina tikilib, Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyi və Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyi yenidən qurulub. Şahbuz rayonu ərazisində müasir standartlara uyğun Ağbulaq İstirahət Mərkəzi fəaliyyətə başlayıb, mərkəzdə zəruri infrastruktur yaradılıb.

Qeyd edək ki, adlarını sadaladığımız bu obyektlər "Heydər Əliyev ili"ndə muxtar respublika əhalisinə ərməğan edilmiş quruculuq töhfələrinin yalnız bir hissəsidir.

**Səbuhi HÜSEYNOV**

***Ordubad Rayon Vergilər Şöbəsində nəzarət-kassa aparatlarından istifadə, vergi partnyorluğu sazişinin bağlanması qaydaları haqqında maarifləndirmə işlərinin aparılması məqsədilə vergi ödəyiciləri ilə görüş keçirilib.***

## Vergi ödəyiciləri ilə görüş keçirilib

Tədbiri rayon Vergilər Şöbəsinin rəisi Məhəmməd İbadov açaraq bildirib ki, malları, işləri, xidmətləri təqdim edən şəxs üçün sahibkarın satıcılara nəzarətinin gücləndirilməsi, mədaxil və məxaric edilmiş malların, işlərin, xidmətlərin uçotunun rahat və dəqiq aparılması, malların, işlərin, xidmətlərin dövriyyəsi üzrə istər operativ, istərsə də müəyyən tarixlərə görə hesabatların əldə edilməsi imkanının olması nəzarət-kassa aparatlarının tətbiqinin müsbət tərəfləridir. Bundan başqa, alınmış mallar keyfiyyətsiz və ya standartlara uyğun olmadıqda onun geri qaytarılmasının tələb edilməsi imkanının olması, satıcı malları, işləri, xidmətləri təqdim edərkən alıcının aldadılması hallarının qarşısının alınması nəzarət-kassa aparatlarından istifadə edilməsi ilə mümkündür. Təbii ki, istər vergi ödəyicisinin, istərsə də istehlakçıların fərdi maraqlarının təmin olunmasından başqa, nəzarət-kassa aparatlarının tətbiqi, ümumən, cəmiyyətin maraqlarına xidmət edir. Tərəflər arasında aparılan bütün əməliyyatların qeydə alınması vergilərin tam həcmdə dövlət büdcəsinə yığılmasına, nəticə etibarilə, dövlətin qüdrətinin və əhalinin rifah səviyyəsinin artmasına səbəb olur.

Vergi partnyorluğu sazişinin bağlanması qaydaları haqqında da danışan şöbə rəisi qeyd edib ki, vergi partnyorluğu sazişi vergi orqanı ilə ödəyici arasında risklərin minimallaşdırılması məqsədilə könüllü bağlanmış niyyət razılaşmasıdır. Bu saziş vergi inzibatçılığı prosesini daha da təkmilləşdirməklə yanaşı, vergi orqanları ilə ödəyici arasında münasibətlərin tamamilə yeni əsasda qurulmasına imkan verəcək. Bu təcrübənin səmərəliliyi artıq təsdiqini tapıb. Vergi partnyorluğu sazişləri könüllülük əsasında bağlanılmaqla, ilk növbədə, qarşılıqlı etimada və məsuliyyətə əsaslanır. Bu da gələcəkdə vergi ödəyicisinin vergidən yayınma risklərini minimallaşdırmaqla onların əlavə maliyyə itkilərinin qarşısını alır. Bu cür tərəfdaşlıq münasibətlərinin qurulması heç bir halda vergi öhdəliklərinin azaldılmasını nəzərdə tutmur. Vergi partnyorluğu sazişi fəaliyyətində qanunvericiliyə tam əməl etməyə çalışan hər bir vergi ödəyicisi üçün son dərəcə əlverişlidir. Bu halda vergi ödəyicisi, məsələn, vergi bəyannamələrini vaxtlı-vaxtında təqdim edəcəyinə, hesablanmış vergiləri tam həcmdə ödəyəcəyinə, hesablaşmalar aparılarkən nəzarət-kassa aparatlarından istifadə edəcəyinə, müştərilərin plastik kartlarla ödəmələr aparmasına şərait yaradacağına dair öhdəliklər götürür. Vergi orqanları da bunun əvəzində vergi nəzarətinin distant formada aparılacağına razılıq verir.

Vurğulanıb ki, vergi ödəyiciləri belə bir saziş imzalamaqla müəyyən risklərdən azad ola bilərlər. Saziş imzalanarkən risk yarada biləcək bütün nüanslar müəyyən ediləcək. Sonra həmin öhdəliklərin yerinə yetirilməsi üçün partnyorluq sazişi bağlanacaq və sonrakı dövrlərdə vergi orqanı tərəfindən vergi ödəyicilərinə əlavə yoxlamalar və inzibatçılıqla bağlı təsirlər olmayacaq.

Tədbirdə şöbənin əməkdaşlarından Həsən Məmmədovun, Malik Məmmədovun, Səttar İsmayılovun çıxışları olub, istehlakçıların və vergi ödəyicilərinin sualları cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## Muxtar respublikada 337 milyon manatdan çox kənd təsərrüfatı məhsulu istehsal olunub

Muxtar respublikada digər sahələrlə yanaşı, kənd təsərrüfatının da inkişafına son illərdə yüksək diqqət və qayğı göstərilir. Çünki aqrar bölmənin bir tərəfdən əhalinin ərzaq məhsullarına, digər tərəfdən emal müəssisələrinin xammala olan tələbatının ödənilməsindəki rolu və əhalinin məşğulluğunun təmin olunmasındakı yeri böyük əhəmiyyətə malikdir. Ona görə də bu sahə ilə məşğul olanlar yaradılan şəraitdən səmərəli istifadə etməyə çalışır, torpaq mülkiyyətçilərinə güzəştli kreditlərin verilməsi, kənd adamlarının, sahibkarların yeni texnika və avadanlıqlarla təchiz olunmaları, müxtəlif meliorasiya tədbirlərinin aparılması, satış yarmarkalarının təşkili yerli kənd təsərrüfatı məhsullarının xüsusi çəkisini xeyli artırmış, 2013-cü ildə muxtar respublikada 337 milyon manatdan çox kənd təsərrüfatı məhsulu istehsal edilmişdir.

Bəhs olunan dövrdə əkinçiliyin müxtəlif sahələrində əldə edilən göstəricilərə diqqət yetirsək, 2013-cü ilin uğurla başa çatan illərdən biri olduğunu görərik.

2008-ci il sentyabrın 17-də qəbul edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın icrası nəticəsində kənd təsərrüfatının inkişafı sahəsində yeni imkanlar yaranmış, əlverişli iqlim və torpaq şəraiti muxtar respublikada əkinçiliyə marağı xeyli artırmış, 2013-cü ilin məhsulu üçün 60 min 127 hektar sahədə əkin aparılmışdır.

Müasir kənd təsərrüfatı texnikalarına olan tələbatın ödənilməsi istiqamətində həyata keçirilən tədbirlər ötən il də davam etdirilmiş, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 348 ədəd müxtəliftəyinatlı kənd təsərrüfatı texnikası alınaraq muxtar respublikaya gətirilmişdir. Hazırda bu təşkilat tərəfindən gətirilən texnikaların sayı 1227-yə çatmışdır. Gətirilmiş texnikalardan 253-ü ötən il lizinq yolu ilə məhsul istehsalçılarına verilmişdir. Bununla yanaşı, torpağın məhsuldarlığını artırmaq məqsədilə əkinçiliklə məşğul olan fermerlər, torpaq mülkiyyətçiləri 4 min 124 ton mineral gübrə ilə təchiz olunmuşlar.

Həyata keçirilən tədbirlər sırasında meliorasiya-irriqasiya sistemlərinin təkmilləşdirilməsini də xüsusi qeyd etmək lazımdır. Başa vurduğumuz ildə muxtar respublikada 4 nasos stansiyasının, 3 subartezian quyusunun və 11 kəhrizin istifadəyə verilməsi bu sahədə olan problemlərin aradan qaldırılmasını təmin etmişdir.

Muxtar respublikada taxılçılıq xüsusi önəm verilən sahələrdən biridir. Belə məhsullara olan tələbatın daxili imkanlar hesabına ödənilməsi əsas tutularaq taxıl əkini sahələri ilbəil genişləndirilir. Bu səbəbdəndir ki, ötən ilin məhsulu üçün 35 min 324 hektar sahədə taxıl əkilmişdir ki, bunun da 25 min 869 hektarını buğda təşkil etmişdir. Məlumat üçün bildirək ki, 2012-ci illə müqayisədə taxıl əkini sahələrinin həcmi 359 hektar artırılmışdır. Torpaq mülkiyyətçiləri əkin sahələrində aqrotexniki tədbirləri vaxtında həyata keçirdiklərindən zəmilərdən 102 min 960 ton məhsul toplamışlar. Bu da 2012-ci ildəkindən 1112 ton çoxdur. Bəhs olunan dövrdə taxıl istehsalı ilə yanaşı, bu strateji məhsulun ehtiyatının yaradılması da diqqətdə saxlanılmış, ümumi tutumu 9 min ton olan üç yeni bunker istifadəyə verilmişdir. Bununla da, muxtar respublikada taxılı uzun müddətə saxlamağa imkan verən anbarın həcmi 18 min tondan 27 min tona çatdırılmışdır.

Kartofçuluqda da yüksək göstəricilər əldə edilmiş, 2957 hektar əkin sahəsindən 41 min tondan çox məhsul götürülmüşdür.

Ekoloji cəhətdən saf və təmiz meyvə-tərəvəz məhsulları ilə tanınan qədim diyarımızda belə məhsulların istehsalını artırmaq da prioritet vəzifəyə çevrilmiş, 2012-ci il fevralın 14-də qəbul olunmuş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icrası diqqət mərkəzində saxlanılmışdır. Bu səbəbdən də 2013-cü ildə tərəvəz məhsullarının istehsalı məqsədilə torpaq mülkiyyətçilərinə 359 min manat, bağçılıq təsərrüfatlarının inkişafı üçün isə 538 min manat kredit verilmişdir. Həyata keçirilən tədbirlər nəticəsiz qalmamış, məhsuldarlıq xeyli yüksəlmişdir. Əkin sahələrindən 67 min tona yaxın tərəvəz, meyvə bağlarından 43 min tondan çox meyvə, 15 min tondan çox üzüm tədarük olunmuşdur.

Muxtar respublikada əhalinin təzə ət, süd və süd məhsullarına olan tələbatının ödənilməsi 2013-cü ildə də davam etdirilmiş, müasir tələblərə cavab verən 2 yeni heyvandarlıq təsərrüfatı yaradılmışdır. Mal-qaranın cins tərkibini yaxşılaşdırmaq və damazlıq sahəsini inkişaf etdirmək məqsədilə bəhs olunan dövrdə 337 baş, ümumilikdə isə son 5 ildə 1678 baş cins mal-qara gətirilərək lizinq yolu ilə fermerlərə verilmişdir.

Aqrar sahənin inkişafına göstərilən qayğı torpağın hər bir qarışının əkilməsinə marağı artırmış, əhalinin məşğulluğu yüksəldilmişdir.

**Muxtar MƏMMƏDOV**



# Naxçıvan elminin baş qərargahı – AMEA Naxçıvan Bölməsi

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə AMEA-nın Naxçıvan Bölməsi Naxçıvanda elmimizin baş qərargahı vəzifəsini uğurla həyata keçirir*

***AMEA Naxçıvan Bölməsi Azərbaycan xalqının böyük xilaskarı, ulu öndər Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli Sərəncamı ilə yaradılmışdır. Mükəmməl elmi-tədqiqat şəraiti ilə təmin edilən bu elm ocağı on bir ildə əldə etdiyi nailiyyətlərlə öz hesabatını verir.***

Azərbaycan xalqı elm sahəsində qazandığı uğurlarla bütün dünyada tanınmışdır. Dünya ədəbiyyatının və elminin korifeyləri olan Nizami Gəncəvi, Nəsirəddin Tusi, Əbülhəsən Bəhmənyar, Yusif Məmmədəliyev və elmin müxtəlif sahələrində fəaliyyət göstərmiş onlarla görkəmli elm, ədəbiyyat, incəsənət xadimləri Azərbaycan xalqına böyük şöhrət gətirmişlər. Nizami Gəncəvi "İsgəndərnamə" əsərində "Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz" yazanda da məhz mənsub olduğu xalqın mənəvi meyarını ifadə etmişdir.

Azərbaycanda elmin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan Elmlər Akademiyasının və alimlərin qayğı ilə əhatələnməsində ulu öndərin misilsiz xidmətləri olmuşdur. ***"Azərbaycan Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir"***, – deyən ulu öndər elmə böyük qiymət verməklə yanaşı, bilavasitə ölkəmizdə elm məbədgahı kimi tanınan Azərbaycan Milli Elmlər Akademiyasına da öz yüksək dəyərini ifadə etmişdir. Ümummilli lider Heydər Əliyev elmin və elmi strukturların inkişafı qayğısına qalmış, yeni islahatlar aparmaqla bu sahədə inkişafa nail olmuşdur. Ulu öndər hətta ölkədə nə qədər maddi sıxıntı yaşanırsa-yaşansın, vəziyyət nə qədər çətin olursa-olsun, diqqəti, qayğını elm və təhsilin üzərindən çəkməməyi tövsiyə etmişdir. Dahi rəhbər bu məqsədlə ***"Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam... Hesab edirəm ki, cəmiyyət hardan olursa-olsun, kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir"***, – deyirdi. Bu mənada elmin və təhsilin inkişafı da ulu öndərimiz Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra başladı. Dahi öndər yenə də öz diqqətini elmin üzərinə çəkərək onun inkişafı qayğısına qalmış, fəaliyyəti sırasında daha uzaqgörən bir addım ataraq blokada şəraitinə salınmış Naxçıvan Muxtar Respublikasında Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması haqqında sərəncam vermişdir.

Ulu öndərin imzaladığı bu sərəncam uğurlu gələcəyə hesablanmış tarixi bir sənəddir. Sərəncamda da deyildiyi kimi, Naxçıvan Bölməsinin yaradılmasında məqsəd Naxçıvan Muxtar Respublikasında elmi-tədqiqat qurumlarının fəaliyyətinin gücləndirilməsi, mövcud elmi potensialdan istifadə olunmasının səmərəliliyinin artırılması, Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası və təbii sərvətlərinin öyrənilməsi üçün daha əlverişli şəraitin yaradılmasından ibarət olmaqla böyük uzaqgörənliyi təzahür etdirirdi. Ümummilli lider özü də bu barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə bəhs edərkən deyirdi ki, ***"Mən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması haqqında sərəncam imzalamışam... Bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də indiyə qədər lazımi dərəcədə öyrənilməyib. Bunlara, mənim irəli sürdüyüm məsələnin öyrənilməsinə böyük ehtiyac var".***

Beləliklə, görkəmli dövlət xadimi Heydər Əliyev müstəqilliyin yaratdığı imkanlardan və tarixi zərurətdən irəli gələn tarixi bir addım atdı: Naxçıvanda elmi inkişafa böyük təməl olan AMEA Naxçıvan Bölməsinin təsis olunması barədə qərar verdi. Ulu öndərimizin elmə bağlılığı haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Azərbaycan elmi öz inkişafına və bugünkü səviyyəyə gəlib çatmasına görə ulu öndər Heydər Əliyevə borcludur. "İqtisadiyyat hansı vəziyyətdə olursa-olsun, elm inkişaf etməlidir", – deyən ümummilli liderimiz hər bir ölkənin və xalqın həyatında elmin müstəsna rolunu yüksək qiymətləndirərək... elmin inkişafının strateji istiqamətlərini müəyyənləşdirmişdir. Qədim dünyanın müdrik insanları deyirdilər ki, siyasət aqillərin çiynində və elmin üzərində dayananda uzunömürlü olur. O siyasət irəli gedir ki, onun elmi kökü var. Tarix o şəxsiyyətləri yaşadır ki, onlar elmə siyasət kimi yox, siyasətə elm kimi baxır, bunu dövlətçilik təcrübəsində həyata keçirməyi bacarırlar. Möhtərəm Heydər Əliyev belə şəxsiyyətlərdən idi".***

Naxçıvanda elmin inkişaf etdirilməsi və elmi potensialın məqsədəuyğun yönləndirilməsi dövlətimizin ən ali məqsədlərindən biridir. ***"Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan... Naxçıvanın tarixinin hələ tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, bu diyarın tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir"***, – deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də Naxçıvanda elmin inkişaf etdirilməsinə daim diqqətlə yanaşmış, onun inkişafına böyük qayğı göstərmişdir.

Doğrudan da, hələ gənc olmasına baxmayaraq, AMEA Naxçıvan Bölməsinin qazandığı elmi uğurlar az deyil. Naxçıvan Bölməsi artıq formalaşmış elmi potensialı və ümumən Naxçıvanın elm adamlarının fəallığı ilə bu qədim diyarın tarixi, arxeologiyası, etnoqrafiyası, mədəniyyəti, ədəbiyyatı, dialekt və şivələri, təbii və bioloji ehtiyatları və sair sahələri əsaslı araşdırmalara cəlb edilmişdir. Böyük qürur və iftixar hissi ilə deyə bilərik ki, Naxçıvan Bölməsində 11 illik qısa zaman kəsiyində böyük uğurlara nail olunmuş, ciddi elmi nəticələr qazanılmışdır. Alimlərin ciddi tədqiqatlarının nəticəsidir ki, Naxçıvanın tarixi və arxeologiyası sahəsində sanballı nəticələr əldə edilmiş, Naxçıvan tarixini 12 min il, şəhər mədəniyyətini 5 min il bundan əvvələ hesablaya biləcək faktlar üzə çıxarılmış, ən qədim yaşayış məskənləri və əmək alətləri, məişət və sənətkarlıq əşyaları və sair aşkarlanaraq dünya elminə tanıdılmışdır. Xüsusilə qeyd etmək lazımdır ki, ulu öndərimizin böyük tarixi məkan hesab etdiyi və alimlərə tədqiqini tövsiyə etdiyi Gəmiqaya abidəsində aparılan araşdırmalar, habelə Naxçıvandakı Ovçular təpəsi, Oğlanqala və başqa ərazilərdə aparılmış arxeoloji qazıntılar zamanı üzə çıxarılan elmi tapıntılarla Naxçıvanın tarixinə yeni səhifələr yazılmışdır. Naxçıvanın və Naxçıvanla bağlı digər yer adlarının etimologiyası, habelə digər elmi faktlar sayəsində alimlərin Nuh Peyğəmbərin Dünya tufanı zamanı məhz Naxçıvanda quruya enməsi və burda məskunlaşması barədə fikirləri maraqlı olduğu qədər də Naxçıvanın tarixi ilə bağlı əhəmiyyətli faktdır. Bütün bu araşdırmaların nəticəsi olaraq, AMEA Naxçıvan Bölməsinin alimləri tərəfindən çap olunan tədqiqat əsərləri və monoqrafiyalar, habelə muxtar respublika rəhbərinin dəstəyi ilə keçirilən "Nuh Peyğəmbər: Dünya tufanı və Naxçıvan", "Naxçıvan: ilkin şəhər və Duzdağ" adlı Beynəlxalq simpoziumlar, habelə Nuh Peyğəmbərin məzarüstü türbəsinin restavrasiya olunması bu sahədə əldə edilmiş ən böyük nailiyyətlərdir. Ali Məclis Sədrinin sərəncamı ilə hazırlanan "Naxçıvan tarixi" çoxcildliyinin birinci cildinin çapa təqdim olunmasını isə naxçıvanlı elm adamlarının konkret uğurlu hesabatı kimi qiymətləndirmək olar. Bundan başqa, naxçıvanlı alimlərin və digər ölkələrdən – Amerika Birləşmiş Ştatları, Fransa, Türkiyə – qatılan elm adamlarının apardığı ciddi tədqiqatların nəticəsi olaraq, Naxçıvanda Duzdağ mədəniyyətinin aşkarlanması, dünyanın ən qədim duzçıxarma mədəninin məhz Naxçıvanda olması faktının təsdiqini tapması da bu elm ocağının nailiyyətləri sırasındadır. Naxçıvanda aparılan qazıntılar zamanı əldə olunan tarixi abidələrin qorunub saxlanması və təbliğ edilməsi istiqamətində də AMEA Naxçıvan Bölməsində xeyli işlər həyata keçirilmiş, bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda Arxeologiya və etnoqrafiya muzeyi yaradılmışdır ki, muzey bu sahədəki nailiyyətlərə işıq tutur. Aparılan tədqiqatların nəticəsini işıqlandıran beynəlxalq konfransların, simpoziumların keçirilməsi, xeyli monoqrafiya və tədqiqat əsərlərinin çapı da bölmədəki elmi və təşkilati işlərin uğurlarından xəbər verir.



Qeyd etmək lazımdır ki, təkcə tarix sahəsində deyil, digər elm sahələrində də əldə edilən uğurlar Naxçıvan Bölməsinin yaradılmasındakı uzaqgörən ideyanı bir daha geniş mənada başa düşməyə imkan verir. Bu gün Naxçıvan Muxtar Respublikasında həyata keçirilən iqtisadiyyatın və özəl sektorun inkişafı siyasəti elmə və elmi nəticələrə istinad etməklə bir tərəfdən elmlə istehsalatın əlaqələndirilməsinə yol açmış, digər tərəfdən düzgün hesablanmış iqtisadi inkişafın elmə dayanıqlılığı təmin edilmişdir. Bu baxımdan Naxçıvanın bioresursları ilə bağlı aparılan elmi tədqiqatları və elmi nəticələri də ən böyük töhfə hesab etmək olar. Taxılçılığın inkişafı bölgəmiz üçün nə qədər əhəmiyyətlidirsə, o sahədə aparılan tədqiqatlar da bir o qədər genişmiqyaslıdır. Bu məqsədlə AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunda taxıl sortları ilə bağlı aparılan tədqiqatlar və əldə edilən uğurlu nəticələr düzgün qurulmuş elmi istiqamətdən xəbər verir. Bundan başqa, bioresursların tədqiqi istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikada reallaşdırılan bir sıra dövlət proqramlarının, o cümlədən ərzaq ehtiyatının yaradılması, taxılçılığın, meyvəçilik və tərəvəzçiliyin inkişafı və başqa bu kimi vəzifələrin icrası işinə də öz töhfələrini verir.

Bu gün AMEA Naxçıvan Bölməsində 1 akademik, 4 nəfər AMEA-nın müxbir üzvü, 7 elmlər doktoru, 52 fəlsəfə doktoru fəaliyyət göstərir. Bu elmi potensialın mövcudluğu və göstərilən qayğı hesabına müxtəlif illərdə iki cilddə "Naxçıvan Ensiklopediyası", "Naxçıvan Abidələri Ensiklopediyası", "Naxçıvanın tarixi atlası", "Naxçıvanın folklor antologiyası" (3 cilddə), "Naxçıvanın Teatr Salnaməsi", Naxçıvanın flora və faunasına aid "Qırmızı kitab", "Naxçıvanın arxeoloji abidələri", "Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan", "Qədim Şərur", "Naxçıvan və naxçıvanlılar", "Nuh Peyğəmbər: Dünya tufanı və Naxçıvan", "Azərbaycan Respublikası şənlik-mərasim nəğmələri", "Naxçıvan ağızları" (türk dilində) və başqa qiymətli əsərlər nəşr edilmişdir. Bu gün çoxlu sayda faktlar saymaq olar ki, Naxçıvanda məhz dövlətimizin elmə göstərdiyi qayğı sayəsində elm adamlarımız böyük uğurlara imza atmışlar.

*Bunu da qeyd etmək vacibdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə AMEA-nın Naxçıvan Bölməsi Naxçıvanda elmimizin baş qərargahı vəzifəsini uğurla həyata keçirir. Məhz Ali Məclis Sədrinin göstərdiyi qayğı sayəsində Naxçıvan Bölməsinin elmi-texniki təminatı sahəsində yüksək uğurlara nail olunmuş, yeni avadanlıqlarla təchiz edilmiş laboratoriyalar yaradılmış, xüsusilə dünya kitabxanaları ilə bilavasitə əlaqəni təmin edən Elektron kitabxana qurulmuşdur. Bölmə əməkdaşlarının informasiya-kommunikasiya texnologiyaları ilə tam təchiz olunmuş rahat iş otaqları ilə təmin olunması da Azərbaycan elminin gələcəyə inamla addımlamasının bir təzahürü kimi razılıq doğurur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun* ***"...Qarşılıqlı şəkildə diqqət yetirilməli sahələr çoxdur. Bunlardan ən vacibi isə keçmiş və müasir tariximizin öyrənilməsi, xalqımızın kimlik pasportu olan abidələrimizin tədqiq olunması, qorunub saxlanmasıdır. Bu sahədə hələ çox iş görülməli, ...tarixi coğrafiyamız yenidən və dərindən öyrənilməli, tədqiq edilməlidir"*** *fikirləri isə naxçıvanlı elm adamlarının qarşısında başlıca vəzifə və məqsəd kimi dayanır, elmi fəaliyyət proqramı olaraq gələcək elmi araşdırmaların konkret istiqamətlərini müəyyənləşdirir.*

**Ramiz QASIMOV**
***filologiya üzrə fəlsəfə doktoru***

# Qazanılan uğurlar yeni imkanlara yol açır

*Cəmiyyət yüksələn inkişafa qədəm qoyduqdan sonra inkişafın dinamikasının qorunub saxlanılması iqtisadi sabitliyin əsas şərtlərindəndir. Ölkədə və regionda əhalinin bütün təbəqələrinin, iqtisadi fəaliyyət subyektlərinin maraqlarının bərabər şəkildə qorunması və dinamik iqtisadi inkişafa nail olunması arasıkəsilmədən, daim reallaşdırılan tənzimləmə tədbirləri sayəsində mümkün olur. Məhz bunların nəticəsində əldə olunmuş mövcud iqtisadi potensial gələcək dövr üçün yeni, daha iri layihələrə zəmin yaradır.*

Ölkəmizin müasir inkişafı, əldə olunmuş uğurlar xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Naxçıvan Muxtar Respublikasında da ötən dövrün ümumi mənzərəsinə baxdıqda iqtisadi-sosial həyatın bütün sahələrində ulu öndərimizin uzaqgörən siyasətinin bəhrələri görünməkdədir. Muxtar respublikada “Heydər Əliyev ili” elan olunmuş ötən 2013-cü il regional inkişaf, əhalinin rifah halının yüksəldilməsi və ümumi stabil sosial-iqtisadi yüksəliş baxımından əlamətdar olmuşdur. Naxçıvanda uğurla həyata keçirilən hər layihə, hər quruculuq tədbiri bu diyarın insanlarının öz rəhbərinin ideyalarına sadiqliyinin, ölkəmizin müstəqilliyinə, onun iqtisadi gücünə töhfəsinin ən parlaq nümunəsidir. İndi hər ötən il naxçıvanlıların həyatında baş verən sürətli yenilənmə, bolluq və bərəkət ili kimi yadda qalır. Bu, çətinliklərə birgə sinə gərmiş, qurub-yaratmaq əzmindən və yurd sevgisindən bir an belə uzaqlaşmayan hər bir insanın taleyin ona bəxş etdiyi töhfəsi kimi halal haqqıdır.

Ölkəmiz inkişaf etdikcə insanların real olaraq istehlak səviyyəsi də yüksəlir. Bu da, ilk növbədə, özünü əmtəə və xidmətlər bazarında göstərir. On il əvvəlki dövrün tələbatları ilə indiki tələbatları bir araya gətirib müqayisə aparmaq çox çətindir. Müasir dövrümüzdə bu tələbatları lazımınca ödəmək üçün inkişafın yaratdığı imkanlardan lazımınca istifadə olunması və öz daxili istehsal potensialımızın da ortaya qoyulması yuxarıda bəhs etdiyimiz daimi inkişafın əsas şərtlərindən biridir. Artıq elm və yeni texnologiyaların müasir səviyyəsi ilə birlikdə yaranan hər bir bazar imkanı istehsal və xidmət sahibkarlarımız üçün yeni ideya mənbəyi, yeni layihələrin reallaşdırılması üçün yeni bir fürsət deməkdir.

Hər bir sahibkarın uğuru ölkənin ümumi iqtisadi potensialı, yaradılan yeni iş yerləri, ailələrin gəlir mənbəyi deməkdir. Özəl sektor inkişaf edib iqtisadi həyatın bütün sahələrinə nüfuz etdikcə yaranan iqtisadi imkanlar daha da artır, hasil edilən milli gəlir əhalinin rifahına çevrilməklə yeni sərmayələrə zəmin yaradır.



Yola saldığımız 2013-cü il bu baxımdan, ümumən, muxtar respublikanın iqtisadi inkişafı, burada fəaliyyət göstərən sahibkarlar üçün uğurlu il olmuşdur. Həyata keçirilən məqsədyönlü tədbirlərin bəhrəsi göz önündədir. Belə ki, sahibkarlığın inkişafı üçün yaradılmış əlverişli şərait fəaliyyətin bu növünə olan marağı daha da artırmış və hazırda muxtar respublikamızda daxili bazarın tələbatlarının ödənilməsinə xidmət edən uğurlu layihələr reallaşdırılmışdır. Bu layihələr özəl sektora aid sənaye, kənd təsərrüfatı, tikinti, emal sənayesi, avtomobilqayırma, poliqrafiya, həmçinin iqtisadiyyatın onlarla digər sahələrində mühüm inkişaf səviyyəsinin əldə olunmasını təmin etmişdir. Nəticədə, bu gün Naxçıvan Muxtar Respublikasında 115 növdə, 459 çeşiddə ərzaq, 231 növdə, 529 çeşiddə qeyri-ərzaq məhsullarının istehsalı üçün geniş imkanlar yaranmışdır. Bu imkanlardan istifadə olunması nəticəsində 2013-cü ildə 106-sı ərzaq və 226-sı qeyri-ərzaq olmaqla, 332 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilmişdir.

Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafını nəzərdə tutan ikinci dövlət proqramının icrasının uğurla başa çatdırılması sahibkarlıq fəaliyyətinin inkişafına da mühüm təsir göstərmişdir. Həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikasında Ümumi Daxili Məhsulun həcmi 2012-ci illə müqayisədə 10 faiz artımla 2 milyard 337 milyon manatdan çox olmuş və burada özəl bölmənin xüsusi çəkisi artaraq 87 faiz təşkil etmişdir.

Muxtar respublikamızın sahib olduğu bütün resurslardan, onun hər bir rayonunun əmək və xammal ehtiyatlarından səmərəli istifadə hazırda prioritet məsələlərdəndir. Dövlət bu yolla regionun hər yerində yeni istehsal və xidmət sahələrinin yaradılmasını, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə imkan verən layihələrin həyata keçirilməsini qarşıya məqsəd qoymuşdur. Belə layihələrin davamı kimi 2013-cü ildə müxtəliftəyinatlı 122 istehsal və xidmət sahəsi fəaliyyətə başlamışdır. Yeni istehsal sahələrinin yaradılması hesabına muxtar respublikada 2013-cü ildə 2127 yeni iş yeri açılmışdır. Onun 92 faizi və ya 1960-ı daimi iş yerləridir. Belə layihələrin həyata keçirilməsi muxtar respublikamızın ümumi investisiya çəkisinin artmasına və mövcud imkanlar hesabına daimi məşğulluğun təmin olunmasına öz töhfəsini verməkdədir.

***Uğurla başa vurduğumuz 2013-cü ildəki nailiyyətlərin davamı üçün qarşıda geniş imkanlar vardır. Ötən dövrün təhlili onu göstərir ki, ölkəmizdə regional inkişafa verilən dəstəyə yeni layihələrlə cavab verərək muxtar respublikanın və ölkəmizin iqtisadi qüdrətinin daha da artırılması istiqamətində tədbirlər 2014-cü ildə – “Muxtariyyət ili”ndə də davam etdiriləcəkdir.***

✍ **Əli CABBAROV**

## Muxtar respublikada arı ailələrinin sayı 69 minə çatdırılıb

Muxtar respublikanın təbii coğrafi və iqlim şəraiti burada müxtəlif təsərrüfat sahələrinin hərtərəfli inkişafına, əhalinin məşğulluğunun təmin edilməsinə və bol məhsul istehsalına imkan verir. Ən gəlirli sahələrdən biri kimi tarixən arıçılıqda da yüksək nəticələr qazanılması bu sahəyə marağı getdikcə artırır. Son illər arıçılığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, dövlət maliyyə dəstəyinin gücləndirilməsi isə daha uğurlu göstəricilər əldə edilməsinə şərait yaratmışdır. Muxtar respublikada Arıçılar İctimai Birliyinin yaradılması belə tədbirlərdən biri kimi bu sahə ilə məşğul olan sahibkarların, kənd adamlarının ürəyincə olmuşdur. Bütün bunların nəticəsidir ki, muxtar respublikada arı ailələrinin sayı ilbəil artır, istehsal olunan məhsulun Naxçıvan Muxtar Respublikasından kənarda da satışı təşkil edilir.

Məlumat üçün bildirək ki, 2013-cü ilin əvvəlinə muxtar respublikanın arıçılıq təsərrüfatlarında 65 mindən çox arı ailəsi mövcud olmuşdur. Hərtərəfli dövlət dəstəyindən yararlanan arıçılar il ərzində onların sayını artıraraq 69 minə çatdırmışlar. Təbii ki, arı ailələrinin artımı məhsul istehsalının həcminə də öz təsirini göstərmişdir. Daha dəqiq desək, 2013-cü ildə 1300 tondan çox bal istehsal edilmişdir ki, bu da əvvəlki illə müqayisədə 11 faiz çoxdur.

**Xəbərlər şöbəsi**

# Reklam – biznesin inkişaf vasitəsi

***Müasir biznesdə reklamın rolu haqqında çoxumuz məlumatlıyıq. Bu da hər birimizə aydındır ki, reklam insanların hər hansı bir məhsulu almalarına və ya xidmətdən istifadələrinə təsir etmək məqsədilə tətbiq olunan məlumatlandırma vasitəsidir. Məlumat üçün qeyd edək ki, reklam anlayışı ilk dəfə Amerika Birləşmiş Ştatlarında yaranmış və 150-200 illik bir tarixi əhatə etməkdədir. O vaxtlar şəhər mühitində tətbiq olunan reklamlar burjua elementi kimi qəbul edilərək kapitalizmin inkişafında çox mühüm rol oynamışdır. Ölkəmizdə reklam işinin əsaslı formada tətbiqinə müstəqilliyimizin bərpasından sonra başlanmışdır. Bu dövrdən etibarən ölkəmizdə bazar iqtisadiyyatına keçid prosesinə başlanılması digər sahələrdə olduğu kimi, reklam bazarının da Azərbaycan modelini qurmağa şərait yaratdı.***

Reklam nədir? Bu suala sadə formada belə cavab vermək olar: reklam bir subyekt və ya məhsul haqqında məlumat vermək və bu məlumat əsasında geniş müştəri kütləsi cəlb etməkdir. Yəni reklam hər hansı bir məhsulu və ya xidməti daha çox müştəriyə ünvanlamaq vasitəsidir. Müasir dövrdə reklamın nümayiş olunduğu vasitələrin sayı çoxdur: televiziya, radio, qəzet, internet resursları və adını sadalamadığımız çoxsaylı vasitələr əsas reklam daşıyıcılarıdır. Bazar iqtisadiyyatında bütün iqtisadi sektorlar zərurətdən yarandığı kimi, reklam sahəsi də zərurətdən yaranmışdır. Təsəvvür edək ki, bizim istehsal etdiyimiz məhsulu başqa bir sahibkar da istehsal edir. Təbii ki, biz məhsulumuzu daha çox satmaq üçün, ilk növbədə, onun keyfiyyət göstəricilərinin yüksək olmasına və münasib qiymətə satılmasına çalışacağıq. Sonra əldə etdiyimiz bu məhsulun həm keyfiyyətli, həm də uyğun qiymətə satıldığını hər kəsə bildirmək istəyirik. Bunu istehlakçıya çatdırmağın nəticəli yolu isə reklamdır. Həmin məhsulu nə qədər çox reklam edə bilsək, bütün istehlakçılar məhsulun məhz bizdə daha keyfiyyətli və münasib olduğunu düşünəcəklər. İndi isə fikirləşək ki, biz məhsulumuzu reklam etmirik. Ola bilsin ki, müştərilərimizi itirməyək (itirmək ehtimalı da var), amma satış miqdarımızı artıra bilməyəcəyimiz şübhəsizdir.

Biznesdə isə irəliləməmək geriyə getmək deməkdir. Yəni ticarətdə stabil vəziyyət qəbuledilməzdir. Bu zaman qazandığımız müştərilərin müəyyən hissəsinin digər şirkətlərin məhsullarını seçəcəyi ehtimalı da qaçılmazdır. Deməli, inkişaf etmək üçün sahibkara həm də reklam lazımdır!

Yuxarıda qeyd etdik ki, reklam üçün çoxsaylı vasitələr var. Sadə bir misala müraciət edək. Təsəvvür edək ki, ərzaq mağazamız var. Çox zaman mağaza sahibləri elə düşünürlər ki, məhsul nə qədər çox olsa, onun satışı da o qədər çox olacaq. Əgər mağazada mövcud məhsullar alıcıya normal və lazımi şəkildə təqdim edilmirsə, göstərilmirsə, o məhsul və ya məhsulların satışı o qədər də uğurlu olmayacaq. Lakin məhsulun düzgün və cəlbedici şəkildə sərgilənməsi mümkündür ki, bu da reklamın bir növüdür. Bu isə, bir qayda olaraq, satışı artırar.

Dünya təcrübəsi göstərir ki, müasir dövrdə reklamın müştəriyə necə çatdırılması böyük təcrübə və bacarıq tələb edir. Diqqət edək. Gün ərzində radio və televiziyada, internetdə çoxsaylı reklamlara rast gəlirik. Onların bəzilərini sona qədər izləmək istəyirik. Bəzilərinə isə marağımız olmur. Bu, ondan irəli gəlir ki, yaxşı, cəlbedici reklam çarxı bizə tez təsir edir və bizdə maraq oyadır, digərləri isə yorucu və maraqsız gəlir. Buradan belə nəticəyə gəlmək olur ki, reklam istehlakçı düşüncəsinə təsir edən ən gözəl vasitədir. Yaxşı reklam düşüncələrə təsir edərək istehlakçıda maraq oyadır. Bu maraq isə həmin istehlakçını müştəriyə çevirir.

İnsanların zövqləri müxtəlifdir. Kiminsə xoşuna gələn bir məhsul başqasının xoşuna gəlməyə bilər. Deməli, sahibkar öz məhsulunu reklam etdirməyə qərar verirsə, ilk olaraq burada həmin məhsulun alıcısı ola biləcək kütləyə xitab etməlidir. Reklamın müştəri düşüncəsinə necə təsir etdiyini maraqlı bir misalla izah etməyə çalışaq.

Son zamanlar ən populyar şirəli içki sayılan brend markalardan biri özünü gənclər üçün enerjili içki kimi tanıtmağa çalışır. Şirkətin hansısa bir ölkə təmsilçiliyi bu il satışları artırmaq və yeni reklam kampaniyası üçün digər konsultasiya şirkətinə tapşırıq verir. Həmin konsultasiya şirkəti brendin indiyədək həyata keçirdiyi kampaniyaları təhlil edir və məhsulu gənclər üçün enerjili içki kimi təqdim etməyə başlayır. Bu reklam kampaniyasına 3 milyon manat pul xərclənilir. Reklam kampaniyası gənclərə nəzərən həyata keçirilir. Son nəticədə isə hər şey bərbad olur: şirkət bu reklam kampaniyasından pul qazanmır! Əksinə, satış azalır. Hamı təəccüblənir: bu, necə ola bilər? Şirkət həmin təmsilçi ölkənin bazarında geniş araşdırmalara başlayır. İlk olaraq, “bu içki daha çox harada istifadə olunur?” sualı ortaya qoyulur. Əldə edilən nəticələr inanılmaz olur. Məlum olur ki, bu enerjili içkinin ən çox satıldığı yerlər gənclərin çoxluq təşkil etdiyi yerlər deyil, yanacaqdoldurma məntəqələridir. İkinci yerdə isə marketlər gəlir. Razılaşma yolu ilə bir neçə marketlərdə bu içkinin düzüldüyü rəflərə nəzarət üçün kameralar quraşdırılır. Nəticə hamını şoka salır. Məlum olur ki, içkinin ən çox alındığı vaxt səhər saat 10-12 arasıdır. Ən maraqlısı isə alıcıların çoxunun yaşı 50-ni keçmiş müştərilərin olmasıdır. Sorğu zamanı aydın olur ki, yaşlı müştərilər bu enerjili içkini içməklə gümrah olacaqlarını düşünürlər, eyni zamanda bunu səhər edirlər ki, gün ərzində gənclər kimi enerjili olsunlar. Məhz bundan sonra şirkət yanacaqdoldurma stansiyalarında yeni enerjili içki vitrinlərinin quraşdırılmasına başlayır və yaşlı insanları özünə daha çox cəlb edən yeni reklam çarxını hazırlayır. Bu kampaniyadan 1 ay sonra həmin təmsilçi ölkədə enerjili içki satışı 18 faiz artır.

Bu misalı çəkməkdə məqsədimiz odur ki, reklam hər zaman istehlakçı düşüncəsinə ciddi təsir edir. Burada əsas məsələ reklamın aid olduğu müştəri kütləsinə dəqiq və aydın şəkildə çatdırılmasıdır.

Yerli sahibkarların əksəriyyəti reklam haqqında geniş məlumatlara malik deyillər. Ən başlıcası isə onlar bunun üçün, hələlik, ciddi zərurətin “yaranmadığını” düşünürlər. Bu düşüncəyə səbəbsə dövlətin yerli sahibkarlara yardımını işin qurulması, inkişaf etdirilməsi ilə yekunlaşdırmasıdır. Belə ki, dövlət sahibkarları həm də xarici rəqabət təsirlərindən qoruyur.

Məsələnin digər tərəfi bundan ibarətdir ki, yerli sahibkarların bəziləri daxili bazarda hansı rola və paya malik olduqlarının bəzən fərqində olmurlar. Onlar üçün yalnız müəyyən alıcı kütləsi var və onları təmin etməyə çalışırlar. Halbuki məhsulun düzgün təqdim edilməsilə daha çox müştəriyə sahib ola bilərlər. Diqqət edək. İndi muxtar respublikamızın əksər bölgələrində, əksər kəndlərimizdə çörəkbişirmə müəssisələri fəaliyyət göstərir. Belə müəssisə sahiblərinin çoxu bişirdiyi çörəyi təkcə aid olduğu yaşayış yerində satmaqla kifayətlənir. Lakin elə sahibkarlar da var ki, istehsal etdiyi məhsulu digər yaşayış məntəqələrində də sata bilir. Niyə sata bilir? Çünki məhsulun keyfiyyəti, qiymətinin aşağı olması, sifarişləri vaxtında sifarişçiyə təhvil verməsi və digər tərəflər həmin sahibkarın daha çox müştəri qazanmasına səbəb olur. Sadaladığımız bu amillər dolayı yolla həmin müəssisənin reklamı rolunu oynayır. Bunu praktik cəhətdən real olaraq reklama çevirmək istənilən müəssisədə satışların artmasına səbəb olacaqdır.

Bizim sahibkarların çoxu daxili bazarda reklamın “işləmədiyini” düşünürlər və buna görə də ona pul xərcləməyi düşünmürlər. Halbuki bizdə reklam üçün tələb olunan qiymət də çox aşağıdır. Onu da unutmayaq ki, hazırda muxtar respublikada 459 çeşiddə ərzaq, 529 çeşiddə qeyri-ərzaq məhsulları istehsal olunur və ildən-ilə bu məhsulların həcmi artmaqdadır. Bu fakt isə yaxın gələcəkdə daxili bazarda ciddi rəqabətin yaranacağından xəbər verir. Bu isə, öz növbəsində, reklam bazarının da inkişafına stimul olacaq.

*Hələliksə gəldiyimiz nəticə budur ki, reklam fəaliyyətinin nəticəli olması üçün istehlakçıların maraqlarını dərindən öyrənmək və həmin auditoriyaya məlumatı onun başa düşə biləcəyi tərzdə – sadə və aydın şəkildə çatdırmaq lazımdır. Necə deyərlər, istehlakçını hər zaman eşitmək, həm də başa düşmək lazımdır. Yoxsa çəkilən xərclər boşa gedər.*

✍ **Səbuhi HƏSƏNOV**

# Botulizm xəstəliyi və ondan qorunma yolları

*Ev şəraitində hazırlanan müxtəlif turşular, mürəbbələr və kompotlar bəzən ağır zəhərlənmələrə səbəb ola bilir. Bu hal əsasən, qış aylarında, konservləşdirilmiş məhsulların maksimum istifadəsi zamanı baş verir. Belə zəhərlənmələrlə bağlı yaranan xəstəlik "botulizm" adlanır. Təəssüf ki, istehlakçıların bir çoxu bu xəstəlik və onun müalicəsi, profilaktikası haqqında çox az məlumata malikdirlər. Məlumatsızlıq nəticəsində isə sözügedən xəstəlik ağır fəsadlarla nəticələnir. Bu xəstəliklə bağlı məlumat almaq üçün Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin baş həkimi Sevil İbrahimovaya müraciət etdik:*

*– Sevil həkim, botulizm nədir?*

– Botulizm ağır qida toksikoinfeksiyasıdır (zəhərlənmə infeksiyası). Əsasən, uzunsov və onurğa beyninin botulotoksin tərəfindən zədələnməsi ilə xarakterizə olunur. Tənəffüs əzələlərinin iflici nəticəsində meydana çıxan tənəffüs çatışmazlığı bu xəstəliyin ən ciddi ağırlaşma mərhələsi hesab edilir və ölümün əsas səbəbi sayılır. Botulizmin geniş alovlanmaları baş verərsə, mövcud botulizm əleyhinə zərdab ehtiyatları və intensiv terapiya (süni tənəffüs aparatları) imkanları xəstəliyin qarşısını almaq üçün kifayət etməyə bilər.

*– Bu xəstəliyi törədən amillər hansılardır?*

– Botulizmin törədicisi klostridium-botilinium bakteriyalarıdır. Botulizmin törədici mikrobları torpaqda yaşayır və oradan suya, tərəvəzə, meyvələrə, qida məhsullarına keçir. Botulotoksin çox şiddətli bakterial zəhərdir. Botulizmin törədiciləri su və ya yemlə otyeyən heyvanlara və soyuqqanlılara (balıqlar və sair) keçir. Həmin heyvanların ətini və ya məhsullarını istehlak etdikdə bu mikroblara yoluxma baş verir. Amma əksər hallarda botulizm xəstəliyinin baş verməsi evdə konservləşdirilmiş məhsulların qəbulu ilə əlaqədardır. Botulizmlə qrup şəklində zəhərlənmə hallarına tez- tez rast gəlinir.

*– Xəstəliyin inkubasiya dövrü nə qədərdir?*

– İnkubasion dövr 2 saatdan 10 günə qədər ola bilir. İnkubasiyanın dövrü orqanizmə daxil olan toksinin dozasından çox asılıdır. Xəstəlik qəflətən başlayır. Xəstələr qarında ağrılardan, mədə nahiyəsində ağırlıq hissindən və ürəkbulanmasından şikayət edirlər. Bədən temperaturu normal qalır, bəzən yüksəlir. Xəstələrin çoxu başağrısından, başgicəllənmədən, ürəkdöyünməsindən, ağızda quruluqdan şikayətlənirlər. Belə xəstələr çox tez yorulurlar. Xəstəliyin əvvəlindən 3-4 saat keçəndən sonra kəllə-sinir nüvələrinin zədələnmələri və müxtəlif orqanların innervasiyasının paralitik pozğunluqları başlayır. Adətən 10-12 saatdan sonra xəstədə qəflətən ürəkbulanması, qusma, ishal kimi əlamətlər meydana çıxır. Oftalmoloji simptomlar xəstəliyin ilk əlamətlərindən biri olur. Xəstələr pis görmədən, gözləri önündə "duman" və ya "tor" olmasından, görüntünün ikiləşməsindən şikayətlənirlər. Oxumaq istədikdə onlar sətirlərdə hərflərin "qaçdığını" müşahidə edirlər. Göz simptomları ilə yanaşı, udma və nitq qabiliyyəti də pozulur. Danışıq zamanı səs tutulur. Botulizm zamanı xəstələrdə qan təzyiqi tez-tez yüksəlir. Xəstəliyin son fazasında diafraqma və başqa tənəffüs əzələlərinin zədələnməsi ilə əlaqədar tənəffüs funksiyasının pozğunluğu baş verir. Terminal dövrdə skelet əzələləri boşalaraq xəmirvari forma alır. Hərəkət son dərəcə məhdudlaşır. Xəstələr başlarını düz tuta bilmirlər. Bu hal xəstənin tənəffüs iflicindən ölümü ilə nəticələnir. Əgər xəstə sağ qalarsa, sağalma tədricən gedir. Əmək qabiliyyəti 6-12 aya qədər itə bilər. Çox hallarda ürək və sinir sisteminin zədələnməsi ilə əlaqədar daimi əlillik baş verir. Bu səbəbdən sadaladığımız simptomları (onların hər hansılarını) hiss etdikdə tez bir zamanda həkimə müraciət edin. Qeyd edək ki, botulizm yalnız xəstəxana şəraitində müalicə oluna bilər.

*– Bəs bu xəstəlikdən necə qorunmaq olar?*

– Bu xəstəlikdən qorunmaq, botulizm xəstəliyindən sığortalanmaq üçün ev şəraitində hazırlanmış turşuları, mürəbbələri və sair konservləri yalnız təzə, keyfiyyətli meyvə və tərəvəzlərdən hazırlayın. Xarab, yetişməmiş və sair meyvə və tərəvəzlərdən istifadə etməyin. Ev şəraitində turşuları, mürəbbələri və sair konservləri hazırladıqda meyvə və tərəvəzləri çox diqqətli şəkildə axar suda yuyun. Daha yaxşı olardı ki, meyvə və tərəvəzlər onlar üçün nəzərdə tutulmuş xüsusi vasitələrlə yuyulsun. Konservləşdiriləcək qabların bir neçə dəfə sterilizasiya olunması daha etibarlıdır. Bundan başqa, konservləri mütləq soyuq yerdə saxlamaq lazımdır (soyuducu, eyvan, zirzəmi). Əgər hər hansı turşu və sair konservlərin bankasının qapağı "şişibsə", belə məhsuldan istifadə yolverilməzdir. Ev şəraitində hazırlanan konservləri istifadə etməzdən əvvəl 15-20 dəqiqə ərzində bağlı vəziyyətdə su ilə dolu qazanda qaynadın. Bu halda botulotoksin tam məhv olacaq. Nəzərinizə çatdıraq ki, yalnız ev şəraitində hazırlanan konservlər deyil, dükanlarda satılan sənaye konservləri də botulizm xəstəliyinə səbəb ola bilər. Bu səbəbdən dükanlardan tərəvəz, balıq, ət və sair konservləri aldıqda qablaşmaya diqqət edilməlidir – məhsul təzə olmalı (yararlılıq müddətinə diqqət yetirin), qapağı şişməməli, dəmirdən olan konservin üzərində batıq yerləri olmamalıdır. Dəmir bankalarda olan balıq və ət konservlərini açdıqdan dərhal sonra digər qaba qoymaq lazımdır.

*– Bəs bu xəstəliyin müalicəsi necə aparılır?*

– İlk növbədə, botulotoksini neytrallaşdırmaq, onun orqanizmdə toplanmasına mane olmaq lazımdır. Bunun üçün vena və ya əzələ daxilinə botulizm əleyhinə polivalent zərdab vurulur. Xəstəliyin ağır formasında dərhal 2 doza venaya, bir doza əzələ daxilinə, 12 saatdan sonra dördüncü doza əzələ daxilinə vurulur. İkinci gün isə 2 doza venaya, 3-4-cü günlər 1 doza əzələ daxilinə vurulur. Ən vacib şərtlərdən biri mədənin yuyulması, bağırsaqların təmizlənməsidir. Lazım gəldikdə tənəffüsü bərpa etmək üçün xəstədə traxeostamiya əməliyyatı aparılır.

**Səbuhi HÜSEYNOV**

*Babək Rayon Təhsil Şöbəsində "Şagirdlərin dərsə davamiyyətinə təsir göstərən amillər və məktəblərdə psixoloji xidmətin təşkili" mövzusunda yığıncaq keçirilib. Yığıncaqda təcrübəli pedaqoqlar, məktəb psixoloqları, təhsil müəssisələrinin rəhbərləri iştirak ediblər.*

# Şagirdlərin dərsə davamiyyəti müzakirə edilib

Tədbiri giriş sözü ilə Babək Rayon Təhsil Şöbəsinin müdiri Kamil Kazımov açıb. Qeyd edilib ki, qış aylarında məktəblərin istilik sisteminin normal işləməməsi şagirdlərin dərsə davamiyyətinə mənfi təsir göstərən amillərdəndir. Son illər muxtar respublikada, eləcə də Babək rayonunda həyata keçirilən quruculuq tədbirləri sayəsində yeni məktəb binalarının istifadəyə verilməsi, lazimi tədris şəraitinin yaradılması bu cür problemləri tamamilə aradan qaldırıb. Artıq şagirdlərin dərsdən yayınmaları üçün heç bir səbəb yoxdur. Şagirdlərin təhsilə davamiyyəti, ilk növbədə, valideyn məsuliyyəti və məktəblərdə davamiyyətə olan nəzarət işlərinin təşkili ilə birbaşa əlaqədardır. Uşaqların təhsildən yayınmasına şərait yaradan əsas amillər kimi valideynlərin uşaqların məktəbə davamiyyətinə az diqqət yetirməsini və məlumatsızlığını qeyd etmək olar. Bundan başqa, məktəblərdə davamiyyətlə bağlı qeydlərin aparılmasına da ciddi diqqət yetirilməli və bu işə nəzarət artırılmalıdır.

Rayon məktəblərində psixoloji xidmətin təşkili sahəsində ortaya çıxan çətinliklər haqqında da danışan Kamil Kazımov qeyd edib ki, günün aktual məsələlərindən biri də məktəbdə psixoloji xidmətin səviyyəsinin yüksəldilməsidir.

Vurğulanmışdır ki, məktəb psixoloqunun işinin əsas qayəsi fərdi yanaşma əsasında problemin həllinə nail olmaq üçün yaxşı tədqiqatçı olmaq, psixoloji üsul və vasitələri sərbəst həyata keçirməyi bacarmaqdır.

Sonda mövzu ətrafında müzakirələr aparılıb, müşahidə olunan çətinliklər və onların aradan qaldırılması yolları təhlil edilib.

**Xəbərlər şöbəsi**

*Futbol üzrə Azərbaycan I divizionunun ilk dövrəsini lider kimi başa vuran "Araz-Naxçıvan" futbol komandası ikinci dövrənin hazırlıqlarına start verib. Yanvarın 5-də Bakıda bir araya gələn Əsgər Abdullayevin yetirmələri ilk bir həftəni daha çox bərpa prosesi kimi keçəcək. Bununla yanaşı, komandaya cəlb olunacaq yeni futbolçular sınaqdan keçiriləcək.*

# "Araz-Naxçıvan" ikinci dövrənin hazırlıqlarına başladı

Məlum olduğu kimi, "Araz-Naxçıvan" ilk dövrə başa çatdıqdan sonra 5 futbolçu ilə yollarını ayırıb. Elvin Cəbrayıllı, Rəşad Hacızadə, Elnur Soltanlı, Nicat Əliyev və Ozal Əbiyevlə müqaviləyə qarşılıqlı surətdə son qoyan muxtar respublika təmsilçisi indi daha çox gənc futbolçuları sınaqdan keçirir. Baş məşqçi Əsgər Abdullayev ixtiyarında olan və sınaq müddətində topqovma bacarıqlarını nümayiş etdirməyə çalışan 8 gənc futbolçudan kimlərin komandada qalıb-qalmayacağı bu həftənin sonunadək aydınlaşacaq.

Gündə bir dəfə məşq etməklə hazırlıqlarını davam etdirən "Araz-Naxçıvan"ın qarşıdakı günlər ərzində məşqlərinin sayını ikiyə yüksəldəcəyi gözlənilir. Muxtar respublika təmsilçisi bərpa prosesindən sonra yoldaşlıq oyunları da keçirəcək. Komandanın sparinq rəqibləri sırasında "AZAL", "Sumqayıt" və "Rəvan" futbol komandalarının adları hallansa da, sonuncu komandanın baş məşqçisinin istefa verməsi oyunun keçirilib-keçirilməyəcəyinə də təsir göstərə bilər. Bu rəqiblərlə hazırlıq matçları yanvarın 12-dən sonra keçiriləcək.

"Araz-Naxçıvan" futbol komandasının müdafiəçisi Mikayıl Rəhimov müalicə üçün Türkiyəyə yollanıb. Dayaq müdafiəçisinin dizindəki probleminin müalicəsi üçün 10 gün qardaş ölkədə qalacağı bildirilir. İlk dövrədə zədələnən Emin İmaməliyev isə hələ də həkim nəzarətindədir. Zədəsi tam olaraq sağalmayan kapitanın bir müddət sonra komanda ilə məşqlərə çıxacağı gözlənilir.

**Ceyhun MƏMMƏDOV**

*Gənc istedadlar*

# Respublika müsabiqələrinin laureatı

*Danılmaz həqiqətdir ki, incəsənətin inkişafı, tanıdılması xeyli dərəcədə sənət aləminə yenicə qədəm qoyan istedadlı gənclərimizin üzə çıxarılması işinin məqsədəuyğun şəkildə aparılmasından asılıdır. Bunun üçün dövlətimiz tərəfindən hər cür şərait yaradılıb.*

Belə istedadlı gənclərdən biri də Naxçıvan Dövlət Universitetinin IV kurs tələbəsi Ülvi Əhmədovdur. Ülvi kiçik yaşlarından musiqiyə böyük maraq göstərmiş, Naxçıvan şəhərindəki Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin fortepiano şöbəsində təhsil almış, solo konsertlərdə uğurlu çıxışına görə fəxri fərman və diplomlarla mükafatlandırılmışdır.

2006 və 2009-cu illərdə Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Bakı şəhərində keçirilən "Gənc pianoçuların respublika müsabiqəsi"ndə muxtar respublikamızı uğurla təmsil edərək birinci yerin sahibi olmuş Ülvi Əhmədov 14-18 dekabr 2012-ci il tarixlərində keçirilən Azərbaycan Bəstəkarlar İttifaqının IX Qurultayında fortepiano üçün "Mövzu ilə variasiyalar" adlı əsəri ilə çıxış etmişdir. Onun bu ifası musiqiçilər tərəfindən maraqla qarşılanmış və yüksək qiymətləndirilmişdir.

2013-cü ildə bəstəkar Kamal Əhmədovun "Fortepiano və vokal-instrumental" əsərlərdən ibarət konsertində o, naxçıvanlı bəstəkarın "Aşıqsayağı" əsərini, "Fortepiano və simfonik orkestr üçün konsert" adlı üçhissəli əsəri isə beynəlxalq müsabiqələr laureatı Teymur Şəmsiyevlə (2 piano üçün) birlikdə musiqisevərlərə təqdim etmişdir.

Ötən il ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi münasibətilə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təşkil olunan və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində keçirilən ali təhsil müəssisələrinin tələbələri arasında musiqi ifaçılarının müsabiqəsində F.Listin "Kampanella", F.Şopenin "Etüd", V.A.Motsartın "Sonata", T.Quliyevin "Qaytağı", K.Əhmədovun "Aşıqsayağı" və başqa əsərləri ifa edərək III yeri qazanmış və diploma mükafatlandırılmışdır. Onu da qeyd edək ki, müsabiqədə Bakı Musiqi Akademiyasının bakalavriat və magistrantları, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələri iştirak etmişlər. Yekun konsertində "Qran-pri" mükafatının və I, II yerlərin qalibləri içərisində T.Quliyevin "Qaytağı" əsərini ifa etmək yalnız Ülvi Əhmədova müyəssər olmuşdur.

Ülvi ilə söhbət zamanı bildirdi ki, ölkəmizdə, o cümlədən muxtar respublikamızda musiqi sənətinin inkişafına böyük qayğı göstərilir, istedadlı gənclərin üzə çıxarılması diqqətdə saxlanılır. Mən də bu qayğıdan bəhrələnən gənclərdən biriyəm. Buna görə dövlətimizə minnətdarlığımı bildirirəm.

Hər bir millətin gələcəyi onun istedadlı gənclərindən asılıdır. Belə istedadlı gənclərimizdən biri olan Ülvi Əhmədova bu yolda sənət uğurları arzulayırıq.

**Mina QASIMOVA**

## Elan

Naxçıvan Şəhər Peşə Liseyi 2013-2014-cü dərs ilində tələb olunan ərzaq məhsullarının satın alınması üçün kotirovka sorğusu elan edir. Kotirovka zərfi 13 yanvar 2014-cü il tarixdə saat $11^{00}$-də açılacaq. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Əlaqələndirici: Abbasov Həsən Saleh oğlu, telefon 545-25-80*

## İtmişdir

Naxçıvan şəhəri, İ.Məmmədov küçəsi, ev 18-də yaşayan Novruzov Cəfər Müzəffər oğlunun adına olan 3053 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

## Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin kollektivi Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin baş həkimi Abasət Hüseynəliyevə, atası
**HƏSƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzinin həkimlərindən Malikəjdər İbrahimov, Alı Əliyev, Almara Mirzəyeva, Süleyman Cəfərov və Sabir Əliyev Abasət Hüseynəliyevə, atası
**HƏSƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin kollektivi Abasət Hüseynəliyevə, atası
**HƏSƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Şərq qapısı" qəzeti redaksiyasının kollektivi Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Bəxtiyar İsmayılova, dayısı
**MEHMAN HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Anar İbrahimov, Ayxan Süleymanov, Elnur Bağırov, İlqar İsmayılov və Dadaş Babayev Bəxtiyar İsmayılova, dayısı
**MEHMAN HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının Terapiya şöbəsinin müdiri İsmət İmanova və şöbənin kollektivi Abasət Hüseynəliyevə, atası
**HƏSƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

A.Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasının direktoru Kamal Axundov və kitabxananın kollektivi iş yoldaşları Naibə Abbasovaya, əmisi
**NADİRİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin İngilis dili kafedrasının əməkdaşları iş yoldaşları Aidə Cəlilzadəyə, dayısı
**ƏLİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin Reanimasiya və cərrahiyyə şöbəsinin kollektivi şöbə müdiri Bəhriyyə Əliyevaya, əzizi
**SƏMƏD HƏSƏNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor müavini:
SƏYYAR MƏMMƏDOV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Elnur Kəlbizadə
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 11